# PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun
hazırlanmış Maliyyə Hesabatları və
**Müstəqil Auditorun Hesabatı**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

## "PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| Müstəqil auditorun hesabatı | 1-2 |
| Mənfəət və ya zərər haqqında hesabat | 3 |
| Digər məcmu gəlirlər haqqında hesabat | 4 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |
| Maliyyə hesabatları üzrə qeydlər: | |
| 1. Şirkət haqqında məlumat | 8 |
| 2. Əsas mühasibat prinsipləri | 9 |
| 3. Mühüm mühasibat uçotu mühakimələri, ehtimalları və fərziyyələri | 15 |
| 4. Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər | 16 |
| 5. Faiz gəlirləri | 16 |
| 6. Anderraytinq xidməti üzrə gəlirlər | 17 |
| 7. İnvestisiya məsləhətləri gəlirləri | 17 |
| 8. İşçi heyəti üzrə xərclər | 17 |
| 9. Mənfəət vergisi | 17 |
| 10. Əsas vəsaitlər | 19 |
| 11. Pul vəsaitləri və onlarin ekvivalentləri | 20 |
| 12. Ticarət hesablarındakı pul vəsaitləri | 20 |
| 13. Maliyyə aktivləri mənfəət və ya zərər hesabatına ədalətli dəyərlə | 20 |
| 14. Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | 20 |
| 15. İnvestisiya qiymətli kağızları | 21 |
| 16. Digər aktivlər | 21 |
| 17. Nizamnamə kapitalı | 21 |
| 18. Subordinasiya borcu | 21 |
| 19. Uzunmüddətli borc öhdəlikləri | 21 |
| 20. Müştərilərə qaytarılacaq vəsaitlər | 22 |
| 21. Əlaqəli tərəflərlə əməliyyatlar | 22 |
| 22. Risklərin idarə edilməsi siyasəti | 23 |
| 23. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri | 26 |
| 24. Maliyyə alətlərinin ədalətli dəyəri | 26 |
| 25. Hesabat dövründən sonra baş vermiş hadisələr | 27 |

Nexia EA

**Müstəqil Auditorun Hesabatı**

"PSG Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarları və Rəhbərliyinə:

*Rəy*

Biz "PSG Kapital İnvestisiya Şirkəti" ASC-nin (Şirkət) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici məlumatların icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

*Rəy üçün əsas*

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Şirkətdən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu rəyin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Maliyyə hesabatları üçün rəhbərliyin və Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar spektisizm tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Şirkətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.

- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda fərdi maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Şirkət daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmunu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslərin nəzərinə çatdırmalıyıq.

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası "NEXİA EA" QSC
NEXİA EA
"NEXIA EA" CJSC Azerbaijan Republic

Nexia EA

**PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **GƏLİRLƏR** | | | |
| Faiz gəlirləri | 5 | 831,989 | 417,402 |
| Anderraytinq xidməti üzrə gəlirlər | 6 | 102,280 | 855,632 |
| İnvestisiya məsləhətləri gəlirləri | 7 | 371,300 | 738,488 |
| Dilinq gəlirləri | | 186,109 | 801,543 |
| Broker fəaliyyətindən əldə olunan gəlirlər | | 85,649 | 54,510 |
| İdarəçilik gəlirləri | | 474,873 | 108,909 |
| Dividend gəliri | | 35,418 | 30,184 |
| | | **2,087,618** | **3,006,668** |
| **XƏRCLƏR** | | | |
| Maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi üzrə xalis (zərər)/gəlir | | (183,686) | 1,964 |
| İşçi heyəti üzrə xərclər | 8 | (481,296) | (474,394) |
| Peşəkar xidmətlər | | (67,029) | (115,258) |
| Mənfəət vergisindən başqa digər vergi xərcləri | | (62,931) | (15,103) |
| İcarə xərcləri | | (54,438) | (36,288) |
| Haqq və komissiya xərcləri | | (29,727) | (36,216) |
| Rabitə xidmətləri | | (14,030) | (17,690) |
| Bank xərcləri | | (14,710) | (17,875) |
| Ofis xərcləri | | (19,538) | (17,362) |
| Üzvlük xərcləri | | (14,383) | (35,324) |
| Köhnəlmə xərcləri | 10 | (9,952) | (9,864) |
| İT xərcləri | | (6,080) | (5,030) |
| Reklam xərcləri | | (1,321) | (6,523) |
| Maliyyə xərcləri | | - | (2,808) |
| Digər xərclər | | (55,549) | (58,173) |
| **ƏMƏLİYYAT GƏLİRİ** | | **1,072,948** | **2,160,724** |
| Məzənnə fərqindən yaranan xalis zərər | | (3,960) | (29,841) |
| Digər gəlirlər | | 18,809 | 6,278 |
| **MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT** | | **1,087,797** | **2,137,161** |
| Mənfəət vergisi xərci | 9 | (224,804) | (419,454) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **862,993** | **1,717,707** |

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Şahin Rəcəbov** | **Nigar Axundova** |
| **Direktor** | **Baş Mühasib** |
| 1 may 2023-cü il | 1 may 2023-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

8-27-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **İl üzrə mənfəət** | | **862,993** | **1,717,707** |
| **Digər məcmu gəlir** | | | |
| *Növbəti dövrlərdə mənfəət və ya zərərdə yenidən təsnifləşdiriləcək digər məcmu gəlir* | | | |
| *İnvestisiya qiymətli kağızların ədalətli dəyərində dəyişiklik digər məcmu gəlirlər haqqında hesabtda ədalətli dəyərlə* | 14 | (1,085,511) | - |
| **İnvestisiya qiymətli kağızları üzrə xalis realizə olunmamış zərərlər /gəlirlər digər məcmu gəlirlər haqqında hesabtda ədalətli dəyərlə** | | **(1,085,511)** | - |
| Digər məcmu gəlirlər haqqında hesabatın elementləri ilə bağlı mənfəət vergisi | 9 | 217,102 | |
| **Növbəti dövrlərdə mənfəət və ya zərər hesabatında yenidən təsnifləşdiriləcək xalis digər məcmu zərərlər** | | **(868,409)** | - |
| **İl üzrə məcmu (zərər)/gəlir** | | **(5,416)** | **1,717,707** |

**Rəhbərlik adından:**

| | |
|---|---|
| **Şahin Rəcəbov** | **Nigar Axundova** |
| **Direktor** | **Baş Mühasib** |
| 1 may 2023-cü il | 1 may 2023-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

8-27-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Qeyri-maddi aktivlər | | 2,309 | 2,559 |
| Əsas vəsaitlər | 10 | 40,228 | 46,819 |
| Təxirə salınmış vergi aktivi | 9 | 253,900 | 7,108 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 1,780,191 | 8,401,167 |
| Ticarət hesablarındakı pul vəsaitləri | 12 | 3,710,922 | 483,848 |
| Maliyyə aktivləri mənfəət və ya zərər hesabatına ədalətli dəyərlə | 13 | 6,574,275 | 22,333,151 |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | 14 | 1,478,644 | - |
| İnvestisiya qiymətli kağızları | 15 | 12,220,898 | 14,418,346 |
| Debitor borcları | | 151,244 | - |
| Digər aktivlər | 16 | 133,856 | 36,985 |
| **CƏMİ AKTİVLƏR** | | **26,346,467** | **45,729,983** |
| | | | |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 17 | 6,250,000 | 6,250,000 |
| Ədalətli dəyər üzrə yaradılmış ehtiyat | | (868,409) | - |
| Bölüşdürülməmiş mənfəət | | 3,891,321 | 3,506,928 |
| ***Cəmi kapital*** | | **9,272,912** | **9,756,928** |
| | | | |
| ***Öhdəliklər*** | | | |
| Subordinasiya borcu | 18 | 151,470 | 151,470 |
| Uzunmüddətli borc öhdəlikləri | 19 | 89,110 | 89,110 |
| Müştərilərə qaytarılacaq vəsaitlər | 20 | 16,086,874 | 34,735,193 |
| Digər öhdəliklər | | 746,101 | 997,282 |
| ***Cəmi öhdəliklər*** | | **17,073,555** | **35,973,055** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **26,346,467** | **45,729,983** |

AZƏRBAYCAN RESPUBLİKASI Açıq Səhmdar Cəmiyyəti PSG-KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ Open Joint-Stock Company AZERBAIJAN REPUBLIC

**Rəhbərlik adından:**

**Şahin Rəcəbov**
**Direktor**

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Nigar Axundova**
**Baş Mühasib**

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

8-27-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət | İnvestisiya qiymətli kağızları üzrə xalis realizə olunmamış zərər | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **6,250,000** | **1,889,221** | **6,231** | **8,145,452** |
| İl üzrə mənfəət | - | 1,717,707 | - | **1,717,707** |
| İl üzrə digər məcmu zərər | - | - | (6,231) | **(6,231)** |
| Dividend | - | (100,000) | - | **(100,000)** |
| **31 dekabr 2021-ci il** | **6,250,000** | **3,506,928** | **-** | **9,756,928** |
| İl üzrə mənfəət | - | 862,993 | - | **862,993** |
| İl üzrə digər məcmu zərər | - | - | (868,409) | **(868,409)** |
| Dividend | - | (478,600) | - | **(478,600)** |
| **31 dekabr 2022-ci il** | **6,250,000** | **3,891,321** | **(868,409)** | **9,272,912** |

**Rəhbərlik adından:**

**Şahin Rəcəbov**
**Direktor**

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Nigar Axundova**
**Baş Mühasib**

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI Açıq Səhmdar Cəmiyyəti PSG-KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ Open Joint-Stock Company AZERBAIJAN REPUBLIC

8-27-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# PSG KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş pul vəsaitlərinin hərəkəti** | | | |
| Mənfəət vergisindən əvvəl gəlir | | 1,087,797 | 2,137,161 |
| *Qeyri-nağd gəlir və xərclər üzrə düzəlişlər:* | | | |
| Köhnəlmə və amortizasiya | | 9,952 | 9,864 |
| Maliyyə alətlərinin qiymətləndirilməsindən əldə olunan gəlir | | - | (6,231) |
| Hesablanmış faizdə dəyişikliklər | | (180,338) | 209,407 |
| Əsas vəsaitlərin satışından gəlir | | 4,477 | 4,116 |
| Maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi üzrə xalis zərər | | 183,686 | - |
| | | **1,105,574** | **2,354,317** |
| ***Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər*** | | | |
| Digər aktivlər | | 363,176 | (30,463) |
| Debitor borcları | | (151,244) | 138,825 |
| İnvestisiya qiymətli kağızları | | 2,377,786 | 4,197,388 |
| Maliyyə aktivləri mənfəət və ya zərər hesabatına ədalətli dəyərlə | | 15,575,190 | (18,631,477) |
| Ticarət hesablarındakı pul vəsaitləri | | (3,227,074) | (180,711) |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | | (2,564,155) | 701,542 |
| Müştərilərə qaytarılacaq vəsaitlər | | (18,651,785) | 19,189,355 |
| Digər öhdəliklər | | (247,715) | 286,983 |
| | | **(5,420,247)** | **8,025,759** |
| Ödənilmiş mənfəət vergisi | | (714,541) | (176,653) |
| Ödənilmiş dividendlər | | (478,600) | (100,000) |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş/(yönəlmiş) pul vəsaitləri** | | **(6,613,388)** | **7,749,106** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | | (7,588) | (5,871) |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitləri** | | **(7,588)** | **(5,871)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmlərin emissiyası | | | |
| Borc vəsaitlərinə ödənişlər | | | |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitləri** | | **-** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma) /artma** | | **(6,620,976)** | **7,743,235** |
| **Pul vəsaitləri və onların ekvivalentləri – ilin əvvəlinə** | 11 | **8,401,167** | **657,932** |
| **Pul vəsaitləri və onların ekvivalentləri – ilin sonuna** | 11 | **1,780,191** | **8,401,167** |

**Rəhbərlik adından:**

**Şahin Rəcəbov**
**Direktor**

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Nigar Axundova**
**Baş Mühasib**

1 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

8-27-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. ŞİRKƏT HAQQINDA MƏLUMAT

"PSG-Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Şirkət") 13 iyul 2016-cı il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən "PSG-Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisi kimi "PSG-Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti adı altında qeydiyyata alınmışdır.

"PSG-Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin səhmdarının 5 senytabr 2022-ci il tarixli qərarı ilə "PSG-Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin hüquqi forması dəyişdirilərək "PSG-Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti olmuşdur. Qərara əsasən Şirkətin nizamnaməsi, direktoru və hüquqi ünvanı dəyişdirilmədən saxlanılmışdır. Bu dəyişiklik 15 sentyabr 2022-ci il tarixində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlilər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydiyyata alınmışdır.

Təşkilatı-hüquqi formanın dəyişməsi ilə əlaqədar 1 avqust 2016-cı il tarixli lisenziyanın əvəzinə 31 oktyabr 2022-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankı Şirkətə investisiya şirkəti fəaliyyətini həyata keçirməyə icazə verən müddətsiz lisenziya vermişdir.

Şirkətin əsas fəaliyyəti yerli və xarici kapital bazarlarında broker və diler əməliyyatlarını və eləcə də qanunvericiliklə nəzərdə tutulmuş digər investisiya xidmətlərini həyata keçirməkdir.

Şirkətin rəsmi qeydiyyatdan keçdiyi hüquqi ünvanı belədir: AZ1025, Bakı şəhəri., Xətai rayonu, Nəcəfqulu Rəfiyev, ev 13.

Şirkətin faktiki ünvanı isə belədir: AZ1078, Bakı, "CİTY POİNT", Cəlil Məmmədquluzadə 102A.

31 dekabr 2022-ci il tarixinə Şirkətin işçi heyəti 16 nəfərdən (2021: 17 nəfər) ibarət olmuşdur.
Şirkətin 31 dekabr 2022-ci il tarixinə səhmlərinin sahibliyi 100% Məmmədov Faiq Ağababa oğluna məxsusdur (2021: 100% Məmmədov Faiq Ağababa oğlu).

***Şirkətin əməliyyat mühiti***

Şirkətin fəaliyyəti əsasən Azərbaycan Respublikasının ərazisində yerləşir. Beləliklə, Şirkət inkişafda olan bazar iqtisadiyyatının xüsusiyyətləri ilə səciyyələnən Azərbaycanın iqtisadi bazarlarında fəaliyyətlə bağlı risklərə məruz qalır. Hüquqi, vergi və normativ baza və rejimlərin inkişafı davam edir, lakin onların müddəalarının həm fərqli şərh olunması, həm də tez-tez dəyişdirilməsi müşahidə olunur. Bütün bunların və sair hüquqi və vergi maneələri nəticəsində Azərbaycanda fəaliyyət göstərən müəssisələr müxtəlif çətinliklərlə üzləşirlər.

Maliyyə hesabatlarında Azərbaycandakı biznes mühitinin Şirkətin fəaliyyətinə və maliyyə vəziyyətinə təsiri Şirkət rəhbərliyi tərəfindən qiymətləndirilir. Gələcəkdə biznes mühiti rəhbərliyin cari qiymətləndirməsindən fərqlənə bilər.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. 2022-ci ildə Fitch və S&P Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. Moody's Investors Service, ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

Azərbaycan manatı 2022-ci il ərzində sabit qalmışdır. Lakin, gələcək dövrdə məzənnə üzrə qeyri-müəyyənlik və bank sisteminin davam edən həssaslığı görülən tədbirlərin real iqtisadiyyata ötürülməsinə mane olur.
Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik, Bankın fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların, bankın maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif neft qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

### 2.1 Maliyyə hesabatlarının hazırlanmasının əsasları

Şirkətin edilmiş maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi ("MUBSK") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmışdır.

### 2.2 Fəaliyyətin fasiləsizliyi

Bu maliyyə hesabatları Şirkətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

### 2.3 Funksional və təqdimat valyutası

Şirkətin maliyyə hesabatlarına daxil edilmiş maddələr şirkətin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutasını (funksional valyuta) istifadə etməklə ölçülür. Maliyyə hesabatları Şirkətin funksional və təqdimat valyutası olan Azərbaycan manatı ilə təqdim edilir.

Maliyyə hesabatlarının hazırlanması zamanı xarici əməliyyatlara qoyulmuş xalis investisiyanın çevrilməsindən, eləcə də həmin investisiyaların hedcinqləri kimi təyin edilmiş borclar və digər valyuta alətlərinin çevrilməsindən yaranan məzənnə fərqləri digər ümumi gəlirdə göstərilir. Xarici əməliyyat qismən silindiyi və ya satıldığı halda kapitalda uçota alınmış məzənnə fərqləri maliyyə vəziyyəti haqqında hesabatda satış üzrə gəlirin və ya zərərin bir hissəsi kimi tanınır.

### 2.4 Xarici valyutanın çevrilməsi

Xarici valyuta ilə ifadə edilmiş və ya xarici valyuta ilə hesablaşma aparılmalı olan xarici valyuta əməliyyatları əməliyyat tarixlərində qüvvədə olan məzənnədən istifadə etməklə funksional valyutaya çevrilir.
Xarici valyuta ilə ifadə edilmiş monetar maddələr hesabat tarixində yekun məzənnə ilə çevrilir. Xarici valyuta ilə ifadə edilmiş, ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ilkin tanınma tarixinə mövcud olan məzənnə ilə çevrilir.

Xarici valyuta ilə aparılmış əməliyyatlar üzrə hesablaşmadan və xarici valyutalarla ifadə edilmiş monetar aktiv və öhdəliklərin ilin sonuna məzənnələri ilə çevrilməsindən yaranan məzənnə fərqi gəlirləri və zərərləri mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır və müvafiq maddənin tərkibində xalis məbləğlə təqdim edilir.

31 dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixinə qüvvədə olan valyuta məzənnələri:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| 1 ABŞ dolları / 1 AZN | 1.7000 | 1.7000 |
| 1 Avro / 1 AZN | 1.8114 | 1.9265 |

### 2.5 Əmlak və avadanlıqlar (Əsas vəsaitlər)

Əmlak və avadanlıqlar, yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır. İlkin dəyər tikinti xərcləri və ya alış qiymətindən, o cümlədən idxal rüsumları və geri qaytarılmayan vergilərdən və aktivin istifadəyə yararlı vəziyyətə gətirilməsinə birbaşa aid olan digər xərclərdən ibarətdir. Hər hansı güzəştlər və geri qaytarılmış məbləğlər tikinti xərcləri, yaxud alış qiymətindən çıxılır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əmlak, tikili və avadanlıqların əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır.

Avadanlıqların bütün növləri lazım olduqda, yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

Hər bir hesabat tarixində rəhbərlik, əmlak, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əmlak və avadanlıqlar dəyərsizləşdikdə, binalar və avadanlıqlar satış xərcləri çıxmaqla onların ədalətli dəyəri ilə istifadə dəyərindən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma məcmu gəlir hesabatında qeydə alınır. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər-hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərər bərpa edilir.
Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və məcmu gəlir hesabatında əks etdirilir.

### 2.6 Amortizasiya

Torpaq üçün amortizasiya hesablanmır. Əmlak və avadanlıqlar üzrə amortizasiya azalan qalıq metoduna əsasən aşağıdakı faiz dərəcələri istifadə olunmaqla hesablanır:

| | |
|---|---|
| Komputerlər və ofis avadanlıqları | 20% |
| Digər əsas vəsaitlər | 20% |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Şirkətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Şirkət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı xidmət müddəti lazım olduqda hər bir balans tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

Texnologiyada baş verən dəyişikliklər Şirkətin fəaliyyətinə əhəmiyyətli təsir göstərə bilər. Bu dəyişikliklər avadanlığın əsas növlərinin yeni texnologiya ilə əvəz edilməsinə gətirib çıxara bilər ki, bu da əhəmiyyətli dərəcədə aşağı xərclə eyni və ya yüksək xidmət imkanlarını təmin edir. Hazırkı ilkin maliyyə hesabatlarının hazırlanması məqsədilə yerdə qalan faydalı xidmət müddətini nəzərdən keçirərkən rəhbərlik bu şərtləri və Şirkətin fəaliyyət göstərdiyi mühiti nəzərə alır.

### 2.7 Qeyri-maddi aktivlər

Şirkətin qeyri-maddi aktivi əməliyyatları həyata keçirmək üçün qeyri-müəyyən müddətə alınmış lisenziyadan ibarətdir. Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlərə amortizasiya hesablanmır, lakin, bunlar hər il fərdi şəkildə və ya pul vəsaitlərini yaradan vahidlər ("PVYV") səviyyəsində dəyərsizləşmə baxımından yoxlanılır. Qeyri-müəyyən istifadə müddətinin qiymətləndirilməsinə hər il yenidən baxılır və qeyri-müəyyən istifadə müddəti prinsipinin məqbul olub-olmaması müəyyən edilir. Məqbul olmadıqda, qeyri-müəyyən istifadə müddəti gələcək dövrlərdə tanınmaqla məhdud istifadə müddətinə dəyişdirilir.

### Qeyri-maddi aktivlərin dəyərsizləşməsi

Hər bir hesabat dövrünün sonunda Şirkət qeyri-maddi aktivlərinin balans dəyərini həmin aktivlərin dəyərsizləşməyə məruz qaldığını göstərən hər hansı bir halın olub-olmadığını müəyyən etmək üçün onu təhlil edir. Əgər bu cür əlamətlər mövcud olarsa, aktivin bərpa edilə bilən məbləği dəyərsizləşmə zərərinin həcmini müəyyən etmək üçün hesablanır. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək

mümkün olmadıqda, Şirkət aktivin aid olduğu pul vəsaitləri yaradan vahidin bərpa edilə bilən məbləğini qiymətləndirir.

Əgər aktivin (pul vəsaitləri yaradan vahidin) bərpa edilə bilən məbləği balans dəyərindən aşağı olarsa, aktivlərin (pul vəsaitləri yaradan vahidin) balans dəyəri öz bərpa edilə bilən məbləğinə qədər aşağı salınır. Müvafiq aktiv üzrə dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmə azalması kimi qəbul edildiyi və bu aktivin yenidən qiymətləndirilmiş dəyərlə uçota alındığı hallar istisna olmaqla, dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesablarında tanınır.

Dəyərsizləşmə üzrə zərər sonradan əvəzləşdirilərsə, aktivin (və ya pul vəsaitləri yaradan vahidin) balans dəyəri onun yenilənmiş bərpa edilə bilən məbləğinədək elə artırılırki, artırılmış balans dəyəri əvvəlki illərdə aktivin (və ya pul vəsaitləri yaradan vahidin) dəyərsizləşmə zərərinə məruz qalmayacağı təqdirdə bərabər olacağı balans dəyərindən artıq olmasın. Müvafiq aktiv üzrə dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmə azalması kimi qəbul edildiyi və bu aktivin yenidən qiymətləndirilmiş dəyərlə uçota alındığı hallar istisna olmaqla, dəyərsizləşmə zərəri üzrə əvəzləşdirmə dərhal mənfəət və zərər hesablarında tanınır.

Qeyri-maddi aktivlər tanınması silinmə zamanı və ya aktivin davamlı istifadəsindən heç bir gələcək iqtisadi faydaların yaranmayacağı təqdirdə dayandırılır. Əmlak və avadanlığın xaricolmasından yaranan gəlir və ya itki aktivin balans dəyəri ilə satış gəliri arasındakı fərq kimi göstərilir və mənfəət və zərər hesablarında uçota alınır.

**2.8 Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Şirkət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət sosial müdafiə fondu tərəfindən yerinə yetirilir. Şirkət Azərbaycan Respublikasının dövlət sosial müdafiə fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Şirkətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**2.9 Maliyyə alətləri**

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** *Maliyyə aləti* Şirkətin maliyyə aktivinin və digər tərəfin maliyyə öhdəliyinin yaranmasına səbəb olan hər hansı müqavilədir.

*Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür.

Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir.

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda

kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya olunmuş dəyər (AC)* əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir.

Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (o cümlədən təqdim olunma zamanı təxirə salınmış komissiyalar, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərində əks olunur.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə alətlərinin ilkin tanınması.*** Maliyyə aktivləri ilkin olaraq tanındığı zaman, onlar müvafiq olaraq, aşağıdakı kateqoriyalardan birində təsnifləşdirilir: (1) mənfəət və ya zərərdə ədalətli dəyərdə tanınan maliyyə aktivləri ("FVTPL"), (2) digər məcmu gəlirlərdə ədalətli dəyərdə tanınan maliyyə aktivləri ("FVTOCI"), yaxud (3) amortizasiya edilmiş dəyərdə ("AC") qeyd edilmiş maliyyə aktivləri.

FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır.

Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərdə qiymətləndirilən maliyyə

aktivləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Şirkətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Şirkətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları.*** Şirkət maliyyə aktivlərini aşağıdakı kateqoriyalarda təsnifləşdirir: FVTPL, FVOCI və AC. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Şirkətin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model.*** Biznes model Şirkətin pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Şirkətin məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və FVTPL kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Şirkətin həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Şirkətin nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir.

***Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri.*** Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Şirkət pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI təhlili).

Belə bir qiymətləndirmə apararkən Şirkət müqavilə üzrə pul axınlarının əsas kredit razılaşmasının şərtlərinə uyğun olub-olmadığını, yəni faizlərə yalnız kredit riski üzrə ödənişlərin daxil olmasını, pulun zaman dəyərini, əsas kredit razılaşmasının digər risklərini və mənfəət marjasını nəzərə alır.

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. SPPI təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir

***Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi.*** Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada - biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Şirkət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

***Maliyyə aktivlərinin silinməsi.*** Maliyyə aktivlərini bərpa etmək üçün Şirkətin bütün praktiki imkanları tükəndikdə və Şirkət belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir.

Şirkət müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması.*** Şirkət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə

hüquqların müddəti başa çatdıqda və ya (b) Şirkət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

***Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları.*** Maliyyə öhdəlikləri aşağıdakılar istisna olmaqla, sonradan amortizasiya olunmuş dəyərdə təsnifləşdirilir: (i) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə öhdəlikləri və; (ii) maliyyə zəmanəti müqavilələri və kredit öhdəlikləri.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması.*** Maliyyə öhdəliyinin tanınması müqavilə üzrə öhdəlik icra edildikdə və yaxud ləğv edildikdə və ya icra müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni kreditor tərəfindən əhəmiyyətli dərəcədə fərqli olan şərtlərlə mübadilə edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi uçota alınır və müvafiq balans dəyərləri üzrə fərqlər cari ilin mənfəəti kimi tanınır.

## 2.10 Nizamnamə kapitalı

Nizamnamə kapitalına əlavələr səhmlərin buraxılması ilə bağlı birbaşa xərclər çıxıldıqdan sonra xalis məbləğ kimi tanınır.

## 2.11 Gəlirlər

*Haqq və komissiyanın tanınması*

Maliyyə aktivi və ya maliyyə öhdəliyi üzrə effektiv faiz dərəcəsinin tərkib hissəsi olan haqq və komissiya gəlirləri və xərcləri effektiv faiz dərəcəsinin ölçülməsinə daxil edilir.
Digər haqq və komissiyalar - hesablar üzrə xidmətlərin göstərilməsi üzrə haqlar, investisiyaların idarə edilməsi üzrə haqlar, satış komissiyaları, yerləşdirmə haqları – uyğun xidmətlər göstərildiyi zaman tanınır. Əgər borc öhdəliyinin geri tələb olunması gözlənilmirsə, o zaman borc öhdəliyi üzrə haqlar öhdəliyin müddəti nəzərə alınaraq düz xətt əsasında hesablanır.

*Gəlirin tanınması*

PSG Kapital İnvestisiya Şirkəti ASC-nin haqları xidmətlərin göstərilməsindən yaranan broker və diler komissiya haqları, anderraytinq və idarəçilik xidmətlərinin göstərilməsindən yaranan haqlardan ibarətdir. Broker və diler komissiya haqları və anderraytinq xidmətlərinin göstərilməsindən yaranan haqlardan əldə olunan gəlirlər hesablama metodu əsasında tanınır və ilin sonuna balans hesabatında debitor borclar hesabında göstərilir və Şirkətin mənfəət və ya zərər və digər məcmu gəlirlər hesabatında gəlir kimi tanınır.

## 2.12 Vergiqoyma

Gəlir vergisi xərci, cari vergi öhdəliyi və təxirə salınmış vergidən ibarətdir.

Cari vergi öhdəliyi il üzrə vergiyə cəlb olunan mənfəətə əsaslanır. Vergiyə cəlb olunan mənfəətə digər illərdə vergiyə cəlb olunan və ya tutulan gəlir və xərc maddələrini daxil olmadığına görə o, məcmu gəlir haqqında hesabatdakı xalis mənfəətdən fərqlənir, həmçinin vergiyə cəlb olunan mənfəətə heç vaxt vergiyə cəlb olunmayan və ya tutulmayan maddələr daxil deyil. Şirkətin cari vergi xərcləri hesabat dövrünün sonuna qüvvədə olan vergi dərəcələrini istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq balansda tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri balansda tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.
Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər

- Şirkətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olsun.

Azərbaycan Respublikasında fəaliyyət göstərən şirkətlərin fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir hesabatına daxil edilir.

## 3. MÜHÜM MÜHASİBAT UÇOTU MÜHAKİMƏLƏRİ, EHTİMALLARI VƏ FƏRZİYYƏLƏRİ

Şirkətin maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabat dövrünün sonunda gəlirlərin, xərclərin, aktiv və öhdəliklərin hesabat verilmiş məbləğlərinə və təəhhüdlərin, zəmanətlərin və şərti öhdəliklərin açıqlanmasına təsir edən mühakimələrin, ehtimalların və fərziyyələrin tətbiq edilməsini tələb edir. Lakin bu ehtimal və fərziyyələrlə bağlı qeyri-müəyyənlik gələcək dövrlərdə müvafiq aktiv və öhdəliklərin balans dəyərlərinə əhəmiyyətli düzəlişlərin edilməsini tələb edəcək nəticə verə bilər.

### Mühakimələr

Şirkətin uçot siyasətinin tətbiqi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınan məbləğlərə ən əhəmiyyətli təsir göstərmiş aşağıdakı mühakimələri tətbiq etmişdir:

*Əlaqəli tərəflərlə əməliyyatların ilkin tanınması*
Şirkət adi fəaliyyətində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS maliyyə alətlərinin ilkin tanınmasının ədalətli dəyər əsasında olmasını tələb edir. Müəyyən əməliyyatlar fəal bazarda aparılmadığı təqdirdə, onların bazar və ya qeyri-bazar faiz dərəcələri ilə qiymətləndirilməsini müəyyən etmək üçün mühakimələr tətbiq edilir. Mühakimə əlaqəli olmayan tərəflər arasında oxşar əməliyyatlar üçün qiymətlərin təyin edilməsi və effektiv faiz dərəcəsinin təhlili əsasında verilir.

### Ehtimal və fərziyyələr

Növbəti maliyyə ilində aktiv və öhdəliklərin balans dəyərlərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola bilən mühüm risk yaradan, hesabat tarixində gələcəklə və ehtimal qeyri-müəyyənliyinin digər əsas mənbələri ilə əlaqəli olan əsas fərziyyələr aşağıda müzakirə olunur. Şirkət ehtimal və fərziyyələrini maliyyə hesabatları hazırlandığı zaman mövcud olan parametrlərə əsaslandırmış və maliyyə hesabatlarında tanınan məbləğləri müəyyən edərkən öz mühakimələrini istifadə etmiş və ehtimallar etmişdir. Lakin mövcud olan vəziyyət və

gələcək dəyişikliklər haqqında fərziyyələr bazarda baş verən dəyişikliklərdən və ya Şirkətin nəzarəti altında olmayan vəziyyətdən asılı olaraq dəyişə bilər. Belə dəyişikliklər baş verdiyi zaman fərziyyələrdə öz əksini tapır.

**Əsas vəsaitlərin istifadə müddəti**

Əsas vəsaitlərin və digər əmlak maddələrinin istifadə müddətlərinin ehtimal edilməsi oxşar aktivlər üzrə təcrübə əsasında mühakiməyə açıqdır. Aktivlərin təcəssüm etdiyi gələcək iqtisadi faydalar əsas etibarı ilə istifadə vasitəsilə əldə edilir. Bununla bərabər digər amillər, misal üçün texniki və kommersiya köhnəlməsi, aşınma, çox vaxt aktivlərin təcəssüm etdiyi iqtisadi faydaların azalması ilə nəticələnir. Rəhbərlik qalan istifadə müddətini aktivlərin cari texniki vəziyyətinə və aktivlərin Şirkət üçün fayda qazandırması gözlənilən təxmini müddətə uyğun olaraq qiymətləndirir. Aşağıdakı əsas amillər nəzərə alınır: (a) aktivlərin gözlənilən istifadəsi; (b) istismar amilləri və texniki xidmət proqramından asılı olan gözlənilən fiziki aşınma; və (c) bazar vəziyyətindəki dəyişikliklərdən irəli gələn texniki və kommersiya aşınması.

**Vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

## 4. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırki maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Şirkət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş lakin qüvvəyə minməmişdir.

***MHBS 17 "Sığorta müqavilələri" (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).*** MHBS 17 şirkətlərə sığorta müqavilələrinin uçotu üzrə mövcud praktikanı tətbiq etməyə icazə verən MHBS 4-ü əvəz edir. MHBS 4-ə əsasən investorlar analoji sığorta şirkətlərində maliyyə nəticələrini müqayisə etmək və üzləşdirməkdə çətinlik çəkirdilər. MHBS 17 sığortaçının təkrar sığorta müqavilələri daxil olmaqla, bütün növ sığorta müqavilələrinin uçotu standartının prinsiplərinə əsaslanan yeganə standartdır. Bu standartın tələbinə görə sığorta müqavilələri qrupları (i) müqavilələrin yerinə yetirilməsi üçün nağd pul axınları üzrə mövcud olan bütün məlumatları müşahidə edilə bilən bazar məlumatlarına uyğun olaraq nəzərə alan riskə görə düzəldilmiş gələcək nağd pul axınlarının diskont dəyəri ilə (müqavilələrin yerinə yetirilməsi üzrə nağd pul axınları); (ii) müqavilələr qrupu üzrə bölüşdürülməmiş mənfəəti (müqavilələr üzrə servis marjası) toplamaqla (dəyər öhdəlik olduqda) və ya çıxmaqla (dəyər aktiv olduqda) tanınmalı və qiymətləndirilməlidir. Sığortaçılar sığorta müqavilələri qrupundan yaranan gəliri sığorta proqramını təqdim etdiyi dövr ərzində, eləcə də riskdən azad olunduğu halda əks etdirəcəklər. Müqavilələr qrupu üzrə zərər mövcuddursa və ya mövcud olarsa müəssisə dərhal zərəri əks etdirəcək.

Rəhbərlik yeni standartların həyata keçirilməsi, maliyyə hesabatlarına təsir göstərməsi və Şirkət tərəfindən qəbulu müddətini də nəzərə alır.
Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 5. FAİZ GƏLİRLƏRİ

| | **31 dekabr 2022-ci il tarixində bitən il üzrə** | **31 dekabr 2021-ci il tarixində bitən il üzrə** |
|---|---|---|
| Qiymətli kağızlar üzrə faiz gəlirləri | 831,989 | 417,402 |
| **Cəmi faiz gəlirləri** | **831,989** | **417,402** |

## 6. ANDERRAYTİNQ XİDMƏTİ ÜZRƏ GƏLİRLƏR

"PSG Kapital İnvestisiya Şirkəti" korporasiya, bank və ya səhm buraxılışını həyata keçirən digər orqanların qiymətli kağızlarının bölüşdürülməsini idarə edir. Şirkət səhm buraxan orqanlarla sıx əməkdaşlıq edir və anderrayter şəbəkəsi vasitəsilə qiymətli kağızları emitentdən alır və investorlara satır. Şirkət ümumiyyətlə səhm buraxılışı həyata keçirən müştərilərdən anderraytinq haqları əldə edir, həmçinin investorlara satılan anderraytinq səhmlərindən mənfəət əldə edir.

PSG Kapital İnvestisiya Şirkəti Azərbaycanda bir neçə yerli banklara və şirkətlərə anderrayter xidmətləri göstərir. 31 dekabr 2022-ci il tarixində bitən il üzrə bu xidmətlərin anderraytinq gəliri 102,280 AZN olmuşdur (2021: 855,632AZN).

## 7. İNVESTİSİYA MƏSLƏHƏTLƏRİ GƏLİRLƏRİ

PSG Kapital İnvestisiya Şirkəti əsas və yardımcı investisiya xidmətləri çərçivəsində emitentlərə və kapital bazarında investisiya edən şirkətlərə qiymətli kağızın və ya törəmə maliyyə alətinin alınması, satılması, abunə yazılışı, dəyişdirilməsi, geri alınması, saxlanılması və anderraytinqi və ya onunla bağlı hüquqların həyata keçirilib-keçirilməməsi ilə bağlı məsləhət xidmətləri verir.

Eyni zamanda investisiya tədqiqatı çərçivəsində ictimaiyyət üçün nəzərdə tutulan, birbaşa və ya dolayı yolla, bir və ya bir neçə qiymətli kağıza, törəmə maliyyə alətinə və ya onların emitentlərinə, həmin qiymətli kağızların və ya törəmə alətlərin cari və ya gələcək qiyməti daxil olmaqla investisiya strategiyasını tövsiyə və ya təklif təqdim edir.

31 dekabr 2022-ci il tarixində bitən il üzrə investisiya məsləhətləri gəlirləri 371,300 AZN (2021: 738,488 AZN) olmuşdur.

## 8. İŞÇİ HEYƏTİ ÜZRƏ XƏRCLƏR

| | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Əmək haqqı xərcləri | 412,249 | 398,374 |
| Dövlət Sosial Müdafiə Fonduna ödənişlər | 69,047 | 76,020 |
| **Cəmi işçi heyəti üzrə xərclər** | **481,296** | **474,394** |

## 9. MƏNFƏƏT VERGİSİ

Şirkət, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar BMHS-dən fərqlənə bilər.

Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Şirkət müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2022-ci il və 2021-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi

üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Şirkətə maliyyə hesabatları üçün əhəmiyyətli olacaq əlavə vergilər, cəzalar və faizlər təyin oluna bilər.

| | 31 dekabr 2020-ci il | Müvəqqəti fərqlərin yaranması və aradan qaldırılması mənfəət vəya zərər hesabatında | 31 dekabr 2021-ci il | Müvəqqəti fərqlərin yaranması və aradan qaldırılması mənfəət vəya zərər hesabatında | Müvəqqəti fərqlərin yaranması və aradan qaldırılması digər məcmu gəlir hesabatında | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | | | | | |
| Əsas vəsaitlər | **1,924** | (1,569) | **355** | (355) | - | - |
| Subordinasiya borcu | **14,612** | - | **14,612** | - | - | **14,612** |
| Müştərilərə qaytarılacaq vəsaitlər | **10,798** | (10,798) | - | - | - | - |
| Maliyyə aktivləri mənfəət vəya zərər hesabatına ədalətli dəyərlə | - | 1,964 | **1,964** | 179,759 | - | **181,723** |
| Digər öhdəliklər | **43,313** | (8,611) | **34,702** | (5,617) | - | **29,085** |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **70,647** | **(19,014)** | **51,633** | **173,787** | **-** | **225,420** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | | | | | |
| Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri | (105,674) | 105,674 | - | - | - | - |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | (6,231) | 6,231 | - | - | 1,085,510 | 1,085,510 |
| İnvestisiya qiymətli kağızları | (190,720) | 178,592 | (12,128) | (7,252) | - | (19,380) |
| Debitor borcları | (136,001) | 136,001 | - | (18,088) | - | (18,088) |
| Digər əsas vəsaitlər | (3,024) | 3,024 | - | - | - | - |
| Uzunmüddətli borc öhdəlikləri | (3,964) | - | (3,964) | - | - | (3,964) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(445,614)** | **429,522** | **(16,092)** | **(25,340)** | **1,085,510** | **1,044,078** |
| Xalis vergi bazasını (azaldan) / artıran müvəqqəti fərqlər | (374,967) | 410,508 | 35,541 | 148,447 | 1,085,510 | 1,269,498 |
| **Xalis təxirə salınmış vergi aktivi/(öhdəliyi)** | **(74,993)** | **82,102** | **7,108** | **29,690** | **217,102** | **253,900** |

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **Təxirə salınmış mənfəət vergisi (öhdəlikləri)/aktivi** | | |
| **Dövrün əvvəlinə** | **7,108** | **(74,993)** |
| Təxirə salınmış vergidə dəyişiklik | 246,792 | 82,101 |
| **Dövrün sonuna** | **253,900** | **7,108** |

Mühasibat mənfəəti ilə mənfəət vergisi xərci arasında əlaqə 31 dekabr 2022-ci və 2021-ci il tarixlərinə aşağıdakı kimi izah edilir:

| | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| **BMHS-na əsasən vergidən əvvəlki gəlir** | **1,087,797** | **2,137,161** |
| Qanunla təyin edilmiş vergi dərəcəsi ilə nəzəri vergi, 20% | (217,559) | (427,432) |
| Tanınmayan vergi xərci | (7,245) | 7,978 |
| **İl üzrə mənfəət vergisi xərci** | **(224,804)** | **(419,454)** |
| Cari mənfəət vergi xərci | (254,494) | (501,555) |
| Təxirə salınmış vergi - müvəqqəti fərqlərin yaranması və aradan qaldırılması | (187,412) | 82,101 |
| Çıxılsın - digər məcmu gəlirdə tanınan təxirə salınmış | 217,102 | - |
| **İl üzrə mənfəət vergisi xərci** | **(224,804)** | **(419,454)** |

## 10. ƏSAS VƏSAİTLƏR

| ***İlkin dəyər*** | Kompyuter və avadanlıqlar | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə balans dəyəri** | **82,046** | **66,366** | **148,412** |
| Daxilolmalar | 3,016 | 2,855 | 5,871 |
| Silinmələr | (3,362) | (3,593) | (6,955) |
| **31 dekabr 2021-ci il tarixinə balans dəyəri** | **81,700** | **65,628** | **147,328** |
| Daxilolmalar | 4,898 | 2,690 | 7,588 |
| Silinmələr | (4,964) | (8,279) | (13,243) |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | **81,634** | **60,039** | **141,673** |
| ***Yığılmış amortizasiya*** | | | |
| **1 yanvar 2021-ci il tarixinə yığılmış amortizasiya** | **(47,555)** | **(46,196)** | **(93,751)** |
| Amortizasiya ayırmaları | (3,871) | (5,726) | (9,597) |
| Silinmələr üzrə amortizasiya | 1,335 | 1,504 | 2,839 |
| **31 dekabr 2021-ci il tarixinə yığılmış amortizasiya** | **(50,091)** | **(50,418)** | **(100,509)** |
| Amortizasiya ayırmaları | (4,715) | (4,987) | (9,702) |
| Silinmələr üzrə amortizasiya | 3,663 | 5,103 | 8,766 |
| **31 dekabr 2022-ci il tarixinə yığılmış amortizasiya** | **(51,143)** | **(50,302)** | **(101,445)** |
| ***Xalis balans dəyəri*** | | | |
| **31 dekabr 2022-ci il tarixinə xalis qalıq dəyər** | **30,491** | **9,737** | **40,228** |
| **31 dekabr 2021-ci il tarixinə xalis qalıq dəyər** | **31,609** | **15,210** | **46,819** |

## 11. PUL VƏSAİTLƏRİ VƏ ONLARİN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Bankda olan pul vəsaitləri | 1,776,024 | 8,398,572 |
| Kassada olan pul vəsaitləri | 4,167 | 2,595 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **1,780,191** | **8,401,167** |

## 12. TİCARƏT HESABLARINDAKI PUL VƏSAİTLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| İnteractive Brokers-də olan pul vəsaitləri | 3,659,336 | 483,848 |
| Freedom Finance-da olan pul vəsaitləri | 51,586 | - |
| **Cəmi ticarət hesablarındaki pul vəsaitləri** | **3,710,922** | **483,848** |

## 13. MALİYYƏ AKTİVLƏRİ MƏNFƏƏT VƏ YA ZƏRƏR HESABATINA ƏDALƏTLİ DƏYƏRLƏ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021ci il |
|---|---|---|
| Milli Depozit Mərkəzi | 513,023 | 971,811 |
| Interactive Brokers | 6,061,252 | 21,281,946 |
| Tacirlər Yatırım | - | 79,394 |
| **Cəmi MZHƏD** | **6,574,275** | **22,333,151** |

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Yerli bazarlarda | 513,023 | 971,811 |
| Xarici bazarlarda | 6,061,252 | 21,361,340 |
| **Cəmi MZHƏD** | **6,574,275** | **22,333,151** |

31 dekabr 2022-ci il tarixinə maliyyə aktivləri mənfəət və ya zərər hesabatına ədalətli dəyərlə Milli Depozit Mərkəzi, İnteractive Brokers hesabında alınmış səhmlərdən ibarət olmuşdur. Səhmlərin 814,200 AZN-i Şirkətin öz vəsaiti hesabına, digər hissəsi müştəri vəsaitləri hesabına alınmışdır.
(31 dekabr 2021-ci il tarixinə maliyyə aktivləri mənfəət və ya zərər hesabatına ədalətli dəyərlə Milli Depozit Mərkəzi və Tacirlər Yatırım hesabında alınmış səhmlərdən ibarət olmuşdur. Səhmlərin 971,811 AZN-i Şirkətin öz vəsaiti hesabına, digər hissə müştəri vəsaitləri hesabına alınmışdır).

## 14. MALİYYƏ AKTİVLƏRİ DİGƏR MƏCMU GƏLİRLƏR HESABATINA ƏDALƏTLİ DƏYƏRLƏ

31 dekabr 2022-ci il tarixinə, maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə 1,478,644 AZN məbləği təşkil etmişdir. Bu aktivlər Şirkətin öz vəsaiti hesabına xarici bazarlardan alınmışdır və əsasən səhmlərdən ibarət olmuşdur.

31 dekabr 2022-ci il tarixinə digər məcmu zərərlər 1,085,511 olmuşdur.

## 15. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

31 dekabr 2022-ci il tarixinə investisiya qiymətli kağızları 5,914,585 AZN məbləğ müştəri hesabına, 6,306,313 AZN öz hesabına alınmış qiymətli kağızlardan ibarətdir. 31 dekabr 2021-ci il tarixinə investisiya qiymətli kağızları 13,493,936 AZN məbləğ müştəri hesabına, 924,4100 AZN öz hesabına alınmış qiymətli kağızlardan ibarətdir.

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Yerli valyutada | 1,155,007 | 1,171,727 |
| Xarici valyutada | 11,065,891 | 13,246,619 |
| **Cəmi investisiya qiymətli kağızları** | **12,220,898** | **14,418,346** |

## 16. DİGƏR AKTİVLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| ƏDV depozit hesabı | 2,791 | 18,017 |
| Vergilər Qurumundan alınacaq vəsaitlər | 131,065 | - |
| Avans ödənişlər | - | 3,064 |
| Digər | - | 15,904 |
| **Cəmi digər aktivlər** | **133,856** | **36,985** |

## 17. NİZAMNAMƏ KAPİTALI

| **Adi səhmlər** | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Buraxılmış və tam ödənilmiş səhmlərin sayı | 6,250 | 6,250 |
| Nominal dəyəri (AZN ilə) | 1,000 | 1,000 |
| **Cəmi nizamnamə kapitalı** | **6,250,000** | **6,250,000** |

Şirkətin nizamnamə kapitalı 31 dekabr 2022-ci il tarixində 6,250,000 (altı milyon iki yüz əlli min) manat (31 dekabr 2021: 6,250,000 manat) olmuşdur.

## 18. SUBORDİNASİYA BORCU

Subordinasiya borcu, səhmdar – Məmmədov Faiq Ağababa oğlundan faizsiz və 5 il müddətinə alınmış borc vəsaitindən ibarət olmuşdur.

31 dekabr 2022-ci il tarixinə borc vəsaitinin qalığı 151,470 AZN (2021: 151,470 AZN) olmuşdur.

## 19. UZUNMÜDDƏTLİ BORC ÖHDƏLİKLƏRİ

Uzunmüddətli borc öhdəlikləri 2017-ci il ərzində səhmdar – Məmmədov Faiq Ağababa oğlundan faizsiz alınmış 2,000,000 ABŞ dollar məbləğində vəsaitdən ibarət olmuşdur. 31 dekabr 2022-ci il tarixinə borc məbləğinin qalığı 89,110 AZN (31 dekabr 2021-ci il tarixinə 89,110 AZN) olmuşdur.

## 20. MÜŞTƏRİLƏRƏ QAYTARILACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Hüquqi şəxslər | 7,712,067 | 29,916,451 |
| Fiziki şəxslər | 8,374,807 | 4,818,742 |
| **Cəmi müştərilərə qaytarılacaq vəsaitlər** | **16,086,874** | **34,735,193** |

## 21. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

24 saylı "Əlaqəli tərəflərlə bağlı qeydlər" adlı MUBS-nın tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Şirkətin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Şirkətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Şirkətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;
(b) Asılı müəssisələr – Şirkət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;
(c) Şirkətin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;
(ç) Şirkətin və ya onun əsas müəssisəsinin idarə heyətinin üzvləri
(d) (a) və ya (c) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;
(e) (ç) və ya (d) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya
(ə) İş müddəti bitdikdən sonra Şirkətin keçmiş işçiləri və ya Şirkətin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Hər bir əlaqəli tərəflə mümkün münasibətləri nəzərə alarkən, əsas diqqət münasibətin sadəcə hüquqi formasına deyil, onun mahiyyətinə verilmişdir.

*Şirkətin əlaqəli tərəflərlə əməliyyatlar üzrə 31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə aşağıdakı qalıqları olmuşdur:*

| | 31 dekabr 2022-ci il | | 31 dekabr 2021-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Subordinasiya borcu** | | **151,470** | | **151,470** |
| *- Səhmdar* | *151,470* | | *151,470* | |
| **Uzunmüddətli borc öhdəlikləri** | | **89,110** | | **89,110** |
| *-Digər* | *89,110* | | *89,110* | |
| **Müştərilərə qaytarılacaq vəsaitlər** | | **16,086,874** | | **34,735,193** |
| *-Digər* | *4,614,751* | | *4,441,232* | |

31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərində bitən illər üzrə mənfəət və ya zərər və digər məcmu gəlir hesabatına daxil olan məbləğlər üzrə əlaqəli tərəflərlə aşağıdakı əməliyyatlar olmuşdur:

| | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə | | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **İşçi heyəti üzrə xərclər** | | **481,296** | | **474,394** |
| *-Rəhbərliyə ödənişlər* | *107,511* | | *71,838* | |

## 22. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

### Kredit riski

Şirkət kredit riskinə məruz qalır ki, bu zaman maliyyə alətinə tərəf olan bir iştirakçı öz öhdəliyini yerinə yetirə bilmir və digər tərəf buna görə maliyyə zərərinə uğrayır.

GKZ hesablamalarının mexanizmi aşağıda təsvir olunur və əsas elementləri bunlardır:

| | |
|---|---|
| DE | Defolt ehtimalı müəyyən vaxt civarında defoltun mümkünlüyünün qiymətləndirilməsidir. Defolt, təhlil edilən müddət ərzində müəyyən anda yalnız müvafiq vəsait daha əvvəl uçotdan çıxarılmamış və hələ də portfelə daxil olanda yarana bilər. |
| DHRH | Defolt halında riskin həcmi, müqavilədə nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, əsas və faiz məbləğlərinin qaytarılması, kredit öhdəliyi üzrə gözlənilən vəsaitlərin istifadəsi və yerinə yetirilməmiş ödənişlər üzrə hesablanmış faiz də daxil olmaqla hesabat tarixindən sonra risk həcmində gözlənilən dəyişikliyi nəzərə almaqla gələcək defolt tarixində risk həcminin qiymətləndirilməsidir. |
| DHZ | Defolt halında zərər müəyyən zaman defolt yarananda əmələ gələn zərərin qiymətləndirilməsidir.Bu, müqavilə ilə nəzərdə tutulmuş ödəniləcək pul vəsaitləri ilə kreditorun əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərqə əsaslanır. Bu, adətən DHZ faizi kimi ifadə edilir. |

Özünün GKZ modelərində Şirkət geniş miqyaslı proqnoz məlumatlarına, məsələn kredit riski komponentlərin qiymətləndirmələrinə inteqrasiya olunmuş iqtisadi göstəricilərə əsaslanır. Dəyərsizləşmə zərərləri və azatetmələr maliyyə aktivinin ümumi balans dəyərinə düzəliş kimi uçota alınan modifikasiya zərərlərindən ayrı olaraq uçota alınır və açıqlanır.

Şirkət hesab edir ki, ilkin tanımadan sonra kredit reytinqi əhəmiyyətli dərəcədə pisləşdikdə kredit riski əhəmiyyətli dərəcədə artmışdır. Əhəmiyyətli pisləşmə səviyyəsi seqmentdən seqmentə fərqlənir və 2-ci və 3-cu pillə arasında və ya müəyyən edilmiş limit daxilində dəyişir. Şirkət həmçinin aktiv üzrə kredit riskinin əhəmiyyətli artmasına təkan vermək üçün 2-ci dərəcəli keyfiyyət metodunu tətbiq edir, məsələn müştərinin / obyektin müşahidə siyahısına daxil edilməsi və ya hesabın saxlanması. Kredit reytinqinin dəyişməsindən asılı olmayaraq müqavilə ödənişləri 30 gündən artıqdırsa, kredit riski ilkin tanıma anından etibarən əhəmiyyətli artmış hesab olunur.

Borcalan müqavilə şərtlərindən asılı olaraq müqavilə ödənişlərini 90 gün gecikdirərsə, Şirkət maliyyə alətinin defolt olduğunu və buna görə də GKZ hesablamaları üçün Mərhələ 3-ün (kredit üzrə dəyərsizləşmə) əmələ gəldiyini hesab edir. Şirkət gün ərzində tələb olunan ödənişlər fərdi müqavilələrdə göstərildiyi kimi iş gününün bağlanması səbəbi ilə ödənilməyəndə kassa və banklararası qalıqlarını defolt hesab edir və dərhal tədbirlər görür. Müştərinin defolt vəziyyətində olub-olmamasını keyfiyyət baxımından qiymətləndirilməsi çərçivəsində Şirkət GKZ-ni AYKD aktivləri, kreditin dəyərsizləşməsi amilləri olan əhəmiyyətli aktivlər və kredit riskinin əhəmiyyətli artması amilləri olan müəyyən aktivlər üçün fərdi əsasla

hesablayır. Şirkət bütün digər siniflərdən olan aktivləri homogen borcalanlar qruplarına GKZ-ni kreditlərin daxili və xarici xüsusiyyətlərinin birləşməsi əsasında məcmu şəkildə hesablayır
GKZ ehtiyatı aktivin müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə əsaslanır. Lakin əmələ gəldiyi andan kredit riskində əhəmiyyətli artım olmadığı hallarda ehtiyat 12 aylıq gözlənilən kredit zərərinə əsaslanır. 12 aylıq GKZ hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə alətləri ilə bağlı öhdəliklərin yerinə yetirilməməsindən irəli gələn GKZ-dən ibarətdir.
Hər hesabat dövrünün sonunda Şirkət, maliyyə alətinin qalan müddəti üzrə öhdəliklərin yerinə yetirilməməsi riskindəki dəyişiklikləri nəzərdən keçirməklə, maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli artıb-artmamasının qiymətləndirilməsi siyasətini tətbiq etmişdir. Yuxarıdakı prosesə əsaslanaraq, Şirkət kreditləri aşağıdakı kimi qruplaşdırılır:

| | |
|---|---|
| Mərhələ 1: | İlk tanınandan bəri kredit riskində artım göstəriciləri olmayan kreditlər. Faiz gəliri məcmu məbləğə hesablanır. Ehtiyatlar 12 aylıq GKZ üzərindən ölçülür. |
| Mərhələ 2: | Kredit riskində əhəmiyyətli artım olmuş kreditlər. Faiz gəliri məcmu məbləğə hesablanır. Ehtiyat ömürlük GKZ üzərindən ölçülür. |
| Mərhələ 3: | Əhəmiyyətli riskə sahib dəyərsizləşmiş hesab olunan kreditlər. Faiz gəliri xalis məbləğə hesablanır. Ehtiyat ömürlük GKZ üzərindən ölçülür. |
| AYKD: | Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (AYKD) ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləridir. AYKD aktivləri ilkin tanınmada ədalətli dəyərlə qeydə alınır və faiz gəliri sonradan krediti nəzərə almaqla düzəliş edilmiş EFD əsasında tanınır. GKZ yalnız gözlənilən kredit zərərlərində sonradan dəyişiklik baş verəndə tanınır və ya ləğv edilir. |

## Maksimal risk

Şirkətin məruz qaldığı maksimal kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir.

Aşağıdakı cədvəl maliyyə aktivlərinin və öhdəliklərinin risklərə məruz qalmasının maksimal həddini təqdim edir. Maliyyə aktivləri üçün bu məbləğ əvəzləşdirmələr və mövcud girovlar çıxıldıqdan sonra aktivlərin qalıq dəyərinə bərabərdir. Maliyyə qarantiyaları və digər şərti təəhhüdlər üçün kredit riskinə məruz qalmanın maksimal həddi, bu qarantiyalar üzrə üçüncü şəxslərə ödənilməli olan mütləq məbləğlər, kredit öhdəliklərində isə müştəri tərəfindən tələb edilən vəsaitlərin məbləği kimi təyin edilir.

| | | | | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|
| | **Maksimal Risk** | **Əvəzləşdirmədən sonra xalis risk** | **Alınmış təminatlar** | **Əvəzləşdirmədən və alınmış təminatlardan sonra xalis risk** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,780,191 | 1,780,191 | - | 1,780,191 |
| Ticarət hesablarındakı pul vəsaitləri | 3,710,922 | 3,710,922 | - | 3,710,922 |
| Maliyyə aktivləri mənfəət vəya zərər hesabatına ədalətli dəyərlə | 6,574,275 | 6,574,275 | - | 6,574,275 |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | 1,478,644 | 1,478,644 | - | 1,478,644 |
| İnvestisiya qiymətli kağızları | 12,220,898 | 12,220,898 | - | 12,220,898 |
| Debitor borcları və alınacaq digər vəsaitlər | 151,244 | 151,244 | - | 151,244 |
| Digər aktivlər | 133,856 | 133,856 | - | 133,856 |

| | | | | **31 dekabr 2021-ci il** |
|---|---|---|---|---|
| | **Maksimal Risk** | **Əvəzləşdirmədən sonra xalis risk** | **Alınmış təminatlar** | **Əvəzləşdirmədən və alınmış təminatlardan sonra xalis risk** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8,401,167 | 8,401,167 | - | 8,401,167 |
| Ticarət hesablarındakı pul vəsaitləri | 483,848 | 483,848 | - | 483,848 |
| Maliyyə aktivləri mənfəət vəya zərər hesabatına ədalətli dəyərlə | 22,333,151 | 22,333,151 | - | 22,333,151 |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | - | - | - | - |
| İnvestisiya qiymətli kağızları | 14,418,346 | 14,418,346 | - | 14,418,346 |
| Debitor borcları və alınacaq digər vəsaitlər | - | - | - | - |
| Digər aktivlər | 36,985 | 36,985 | - | 36,985 |

## Likvidlik riski

Likvidlik riski maliyyə aktivləri ilə bağlı götürülmüş depozitləri və digər maliyyə təəhhüdlərini ödəmə müddətində ödəmək üçün kifayət qədər maliyyənin mövcud olmasına istinad edir.

Şirkətin likvidliyinin idarə edilməsi öhdəliklərin vaxtı çatdıqda onları ödəyə bilmək üçün likvid aktivlərin səviyyəsinin kifayət qədər olmasını, maliyyə resurslarına keçidin olmasını, maliyyə üzrə gözlənilməz planların olmasını və likvidlik nisbətlərinin qanuni tələblərə uyğunluğunu nəzərə almağı tələb edir.

Likvidlik və faiz dərəcəsi riskinin təhlili aşağıdakı cədvəldə göstərilmişdir. Cədvəllər daha ətraflı aşağıda verilir:

| | | | **31 dekabr 2022** |
|---|---|---|---|
| | **1 ilə qədər** | **1 ildən çox** | **Cəmi** |
| **Maliyyə aktivləri** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,780,191 | - | 1,780,191 |
| Ticarət hesablarındakı pul vəsaitləri | 3,710,922 | | 3,710,922 |
| Maliyyə aktivləri mənfəət vəya zərər hesabatına ədalətli dəyərlə | 6,574,275 | | 6,574,275 |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | 1,478,644 | | 1,478,644 |
| İnvestisiya qiymətli kağızları | 12,220,898 | - | 12,220,898 |
| Debitor borclar | 151,244 | - | 151,244 |
| Digər aktivlər | 133,856 | - | 133,856 |
| **Cəmi maliyyə aktivləri** | **26,050,030** | | **26,050,030** |
| **Maliyyə öhdəlikəri** | | | |
| Uzunmüddətli borc öhdəlikləri | - | 89,110 | 89,110 |
| Subordinasiya borcu | | 151,470 | 151,470 |
| Müştərilərə qaytarılacaq vəsaitlər | 16,086,874 | | 16,086,874 |
| Digər öhdəliklər | 741,801 | | 741,801 |
| **Cəmi maliyyə öhdəlikləri** | **16,828,675** | **240,580** | **17,069,255** |
| **Likvidlik intervalı** | **9,221,355** | **(240,580)** | **8,980,775** |

| | | | **31 dekabr 2021** |
|---|---|---|---|
| | **1 ilə qədər** | **1 ildən çox** | **Cəmi** |

| | | | |
|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8,401,167 | - | 8,401,167 |
| Ticarət hesablarındakı pul vəsaitləri | 483,848 | - | 483,848 |
| Maliyyə aktivləri mənfəət vəya zərər hesabatına ədalətli dəyərlə | 22,333,151 | - | 22,333,151 |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | | - | |
| İnvestisiya qiymətli kağızları | 14,418,346 | - | 14,418,346 |
| Debitor borcları | 36,985 | - | 36,985 |
| Digər aktivlər | | | |
| **Cəmi maliyyə aktivləri** | **45,673,497** | - | **45,673,497** |
| **Maliyyə öhdəlikəri** | | | |
| Uzunmüddətli borc öhdəlikləri | - | 89,110 | 89,110 |
| Subordinasiya borcu | - | 151,470 | 151,470 |
| Müştərilərə qaytarılacaq vəsaitlər | 34,735,193 | - | 34,735,193 |
| Digər öhdəliklər | 673,616 | - | 673,616 |
| **Cəmi maliyyə öhdəlikləri** | **35,408,809** | **240,580** | **35,649,389** |
| **Likvidlik intervalı** | **10,264,688** | **(240,580)** | **10,024,108** |

## 23. ŞƏRTİ ÖHDƏLİKLƏR, TƏƏHHÜDLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

***Məhkəmə prosedurları.*** Şirkətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, Şirkətin Rəhbərliyi öz təxminlərinə, daxili və peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Şirkətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq orqanlar tərəfindən etiraz edilə bilər.

Azərbaycanın vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətə yenidən baxıla bilər. Bunun nəticəsində, Şirkətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Azərbaycanda vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Şirkətin mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 31 dekabr 2022-ci və 2021-ci il tarixlərinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

1 yanvar 2002-ci il tarixindən qüvvəyə minmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin 18-ci Maddəsinə uyğun olaraq, vergi orqanları qarşılıqlı surətdə asılı olan tərəflər arasında qeyri-bazar qiymətləri ilə aparılan əməliyyatlar və qiyməti bazar qiymətlərinin 30%-dən çox fərqlənən əməliyyatlar üzrə bazar qiymətinin müəyyənləşdirilməsi ilə bağlı düzəlişlər apara və əlavə vergi öhdəlikləri tətbiq edə bilərlər.

## 24. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər elə məbləğdə müəyyən edilir ki, maliyyə aləti ləğvetmə halında və ya məcburi satışla deyil, cari əməliyyat nəticəsində məlumatlı və müstəqil tərəflər arasında sövdələşmədə həmin məbləğə satıla

bilsin. Burada göstərilən qiymətləndirmələr Şirkətin həmin alətləri bazarda həmin qiymətə reallaşdırmağın vacibliyini göstərmir.

Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ədalətli dəyərinin Şirkətin maliyyə vəziyyəti haqqında hesabatında olan uyğun balans dəyəri ilə müqayisəsi aşağıda göstərilmişdir:

| | **31 dekabr 2022-ci il** | | **31 dekabr 2021-ci il** | |
|---|---|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyəri** | **Balans dəyəri** | **Ədalətli dəyəri** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,780,191 | 1,780,191 | 8,401,167 | 8,401,167 |
| Ticarət hesablarındakı pul vəsaitləri | 3,710,922 | 3,710,922 | 483,848 | 483,848 |
| Maliyyə aktivləri mənfəət vəya zərər hesabatına ədalətli dəyərlə | 6,574,275 | 6,574,275 | 22,333,151 | 22,333,151 |
| Maliyyə aktivləri digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə | 1,478,644 | 1,478,644 | - | - |
| İnvestisiya qiymətli kağızları | 12,220,898 | 12,220,898 | 14,418,346 | 14,418,346 |
| Debitor borcları | 151,244 | 151,244 | - | - |
| Digər aktivlər | 133,856 | 133,856 | 36,985 | 36,985 |
| Subordinasiya borcu | 151,470 | 151,470 | 151,470 | 151,470 |
| Uzunmüddətli borc öhdəlikləri | 89,110 | 89,110 | 89,110 | 89,110 |
| Müştərilərə qaytarılacaq vəsaitlər | 16,086,874 | 16,086,874 | 34,735,193 | 34,735,193 |
| Digər öhdəliklər | 741,801 | 741,801 | 673,616 | 673,616 |

Şirkət qiymətləndirmə üsulu ilə ədalətli dəyərdə görünən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək və açıqlamaq üçün aşağıdakı iyerarxiyanı istifadə edir:
- 1-ci mərhələdə ədalətli dəyərin ölçülməsi aktiv bazarda oxşar aktivlər və öhdəliklər üçün təyin edilmiş qiymətdən yaranır;
- 2-ci mərhələdə ədalətli dəyərin ölçülməsi – 1-ci mərhələdə olan təyin edilmiş qiymətdən başqa – aktiv və ya öhdəliklər üçün birbaşa (məsələn, qiymətlər) və ya dolayı (məsələn, qiymətlərdən yarananlar) yolla müşahidə edilə bilən mədaxillərdən yaranır;
- 3-cü mərhələdə ədalətli dəyərin ölçülməsi müşahidə edilə bilən bazar məlumatları (müşahidə edilə bilməyən mədaxillər) əsasında olmayan aktivlər və öhdəliklərin qiymətləndirmə üsulundan yaranır.

## 25. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat dövründən sonra əhəmiyyətli hadisələr baş verməmişdir.